**Mirzə M.** Ana, mən gedəndə arxamca ağlama // Respublika. - 2023. - 26 iyun. - **№ 135**. - S. 8.

Torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin ömür yolu bütün
gənclərə örnəkdir. Bu gün haqqında söz açacağımız qəhrəmanımız Vətən müharibə
sində şəhidlik zirvəsinə ucalan, Xüsusi Təyinatlı Qüvvələrin leytenantı Elnur Vəliy
evdir.

Şəhidimiz 14 aprel 1997-
ci ildə Ucar rayonunda anadan olub. Elnur Vəliyevlər ailəsinin sonbeşiyi,
3 bacının bir qardaşı idi. O, orta məktəbi burada bitirdikdən sonra, 2014-
cü ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul olur. 2018-
ci ildə universiteti bitirərək Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) təlimlərinə qatılır.
Beləcə, Elnurun hərbi həyatı başlayır, uşaqlıq arzusu çin olur. Elnur 2018-
ci ildən Azərbaycan Silahlı Qüvvələrinin Cəlilabad rayonunda yerləşən "N" saylı h
ərbi hissəsində xidmət edirdi.

Azərbaycan Ordusunun leytenantı olan Elnur 2020-ci il sentyabrın 27-
də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan əraziləri
n azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlana
n Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərə qatılıb.
Elnur Vəliyev oktyabrın 26-
da Xocavənd döyüşləri zamanı şəhid olub. Ucar şəhərinin Şəhidlər xiyabanında dəf
n olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına q
atılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu
şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına ə
sasən Elnur Vəliyev ölümündən sonra "Vətən uğrunda",
"Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə",
"Cəbrayılın azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə",
"Füzulinin azad edilməsinə görə" və "Şücaətə görə" medalları ilə təltif edilib.

Elnurun atası Əli Vəliyev: "Axırıncı dəfə sentyabr ayının 23-ü evə gəldi,
2 saat oturub getdi. Ondan bir neçə gün sonra isə, zəng edib dedi ki, təlimə gedirə
m. Biz nigaran qalmayaq deyə döyüşə getdiyini gizlətdi. Oğlum ailəsinə və Vətəni
nə olduqca bağlı olub. Tək bizim övladımızın yox, elə XTQ-
nin bütün əsgərlərinin Vətən sevgisi bir başqa idi. Həmin əsgərlərdən bir neçəsi ray
on xəstəxanasına yaralı halda gətirilmişdi. Hələ heç tam sağalmamışdılar, deyirdilə
r ki, burada dayana bilmirik, döyüşə qayıtmaq istəyirik".

"Oğlum bizə ən son 25 oktyabrda zəng etmişdi. Füzulidə qazandıqları uğuru fəxrlə danışırdı. Deyirdi ki, düşməni hər iki tərəfdən sıxışdırıb, məhv edib öz əsgərlərimiz lə üz-
üzə gəldik, o an sevincimizdən qucaqlaşdıq, zəfərimizi qeyd etdik. Burada Azərbay can əsgərinin görüşü, qələbəsi təntənəli olub. Ermənilərin çəkdiyi beton istehkamı keçmişdilər. Daha sonra isə oğlumdan səs-soraq çıxmadı. Noyabrın 3-
ü oğlumuzdan xəbər gəldi, dedilər ki, şəhid olub, əvvəlcə inanmadıq. Axı kim övla dının yoxluğunu qəbul edər? İçimizdə bir ümid var idi, ta ki, rəsmi xəbər gələnə qə dər".

Bacısı Gülnarə xanım:
"Qardaşımın 6 il idi ki, sevdiyi var idi. Hərisi alınmışdı, noyabrda nişan edəcəkdik, qismət olmadı. Pandemiya ilə bağlı olaraq məzuniyyətə gələ bilmirdi, ona görə də nişan ləngiyirdi. Sentyabr ayında 2 saatlıq gəlmişdi, biz də deyirdik ki, bir dəfə elə gəl ki, heç olmasa iki gün qal, nişan edək sənə. Arzularımız, istəklərimiz var idi El nurla bağlı... Çox istiqanlı övlad olub. Axırıncı dəfə gələndə də anama hədiyyələr, - televizor, tozsoran almışdı. Təzə ev tikdirmişdi".

Gülnarə xanım söyləyir ki, tək oğlan övladı olduğu üçün evdə Elnurun hərbiyə get məyini istəməyiblər: "Məktəb vaxtı dərslərində yaxşı idi, 3 il hazırlığa qoyduq. Fövqəladə Hallar Nazirliyinin Akademiyasına qəbul olmağın ı istəyirdik, amma, balı çatmadı. O həmişə deyirdi ki,
"siz mənim haqqımda xəyallar quranda, mən artıq 5-
ci sinifdən öz planlarımı cızmışdım". Hərbçi olmaq uşaqlıqdan arzusu idi".

Şəhidin böyük bacısı Lalə İbrahimova:
"Elnur heç vaxt bizi nigaran qoymaq istəməyib, buna görə elə danışırdı ki, validey nlərimizin ürəyi rahat olsun. Nə keçdiyi ağır təlimləri bizə bildirirdi, nə də ki, ağrıl arını... Axırıncı dəfə gələndə hiss olunurdu ki, nə isə narahatdır. Gedəndə heç vaxt görüşüb, ağlamırdı, amma bu dəfə gedəndə təkrar qayıdıb anamı bir də qucaqladı. Halbuki anama həmişə deyərdi,
"mən gedəndə arxamca ağlama". Oktyabr ayının ortalarına kimi bizə müharibədə o lduğunu bildirmədi. Dediyim kimi, istiqanlı və düşüncəli insan olub, onunçün Vətə n və ailə hər şeydən öncə gəlirdi...".

Vətən uğrunda canından, qanından keçən Elnurun ailəsi üçün ən böyük təsəlli odur ki, artıq heç bir şəhidin qanı yerdə qalmayıb. İşğal olunan torpaqlarımız geri alınıb və o torpaqlarda yeni həyat başlayıb.